# LORENZO VALLA AND THE PHILOSOPHICAL ANALYSIS OF THE HUMANIST LANGUAGE CONCEPTION

**Gulnara Khalafova**[1]
**Aladdin Malikov**[2]

**UDC:** 1(091)"14":81′2(091)
**LBC:** 87.3:81
**HoS:** 119
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.169-180

**Keywords:**

Renaissance, Humanism, Lorenzo Valla, Linguistics, Living Language

## ABSTRACT

The period of Humanism is a stage in the intellectual history of Europe during which language was understood not only as a means of communication, but also as a fundamental instrument shaping thought. In this era, the boundaries of cognition were redefined, and the philosophical analysis of the language–meaning relationship became a central focus. In this context, although Lorenzo Valla is usually known only for his work “The Donation of Constantine”, evaluating his philosophical views solely on the basis of this text does not sufficiently reflect the essence of the humanist language conception. The work in question, in addition to proving the falsity of a political document, also serves as a typical example of humanist linguistic thinking. The article analyzes Lorenzo Valla’s humanist language conception in comparison with the ideas of representatives of other humanist and philosophical traditions — Juan Luis Vives, Pietro Bembo, and William Ockham. In the research, Valla’s approach to the relationship between meaning and expression is examined through an analytical method, and his philological style is evaluated in terms of its influence on the formation of humanist thought. Furthermore, the study draws attention to the incorrectness of reducing Valla’s philosophical–linguistic views in academic literature to only one work, and investigates the process of development of the language conception in the period of Humanism through the historical-philosophical method. As a result, it is determined that Lorenzo Valla made a significant contribution to the development of both the philological and philosophical traditions in the history of humanist thought, and was one of the main humanists who reconceptualized the function of language in the cognitive process.

[1] Master's student, Faculty of Social Sciences and Psychology, Baku State University; Baku, Azerbaijan (corresponding author)
E-mail: khalafovagulnara@gmail.com
https://orcid.org/0009-0009-0558-4491
[2] Doctor of Philosophy in Philosophy, Associate Professor,
AcademyGate Publishing (ISNI: 0000000514175052); Baku, Azerbaijan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
**To cite this article:** Khalafova, G., & Malikov, A. [2025]. Lorenzo Valla and The Philosophical Analysis of the Humanist Language Conception. *History of Science journal*, *6*(5), pp.169-180.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.169-180

***Article history:***
*Received: 15.10.2025*
*Revised: 17.11.2025*
*Accepted: 01.12.2025*
*Published: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# LORENZO VALLA VƏ HUMANİST DİL KONSEPSİYASININ FƏLSƏFİ TƏHLİLİ

**Gülnarə Xələfova**[1]
**Ələddin Məlikov**[2]

**UOT:** 1(091)"14":81′2(091)
**KBT:** 87.3:81
**HoS:** 119
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.169-180

**Açar sözlər:**

Renessans,
Humanizm,
Lorenzo Valla,
Dilçilik,
Canlı Dil

## ANNOTASİYA

Humanizm dövrü Avropa intellektual tarixində dilin təkcə ünsiyyət vasitəsi deyil, həm də düşüncəni formalaşdıran fundamental bir vasitə kimi dərk edildiyi bir mərhələdir. Bu dövrdə idrakın sərhədləri yenidən müəyyənləşdirilmiş, dil-məna münasibətlərinin fəlsəfi təhlili xüsusi diqqət mərkəzində olmuşdur. Bu konteksdə Lorenzo Valla adətən yalnız "Konstantinin Saxta Bağışı" əsəri ilə tanınsa da onun fəlsəfi baxışlarını təkcə bu mətn üzərindən qiymətləndirmək humanist dil konsepsiyasının mahiyyətini yetərincə əks etdirmir. Sözügedən əsər siyasi sənədin saxtalığını sübut etməklə yanaşı, eyni zamanda humanist dil təfəkkürünün tipik nümunəsi kimi çıxış edir. Məqalədə Lorenzo Vallanın humanist dil konsepsiyası digər humanist və fəlsəfi ənənələrin nümayəndələrinin — Juan Luis Vives, Pietro Bembo və William Ockhamın ideyaları ilə müqayisəli şəkildə təhlil edilir. Araşdırma işində Vallanın məna və ifadə münasibətinə yanaşması analitik metod əsasında incələnmiş, onun filoloji üslubu humanist düşüncənin formalaşmasına təsiri baxımından qiymətləndirilmişdir. Bundan əlavə, tədqiqat akademik ədəbiyyatda Vallanın fəlsəfi-dil görüşlərinin yalnız bir əsərə müncər edilməsinin yanlışlığına diqqət çəkir və humanizm dövründə dil konsepsiyasının inkişafı prosesini tarixi-fəlsəfi metodla tədqiq edir. Nəticədə müəyyən edilir ki, Lorenzo Valla humanist düşüncə tarixində həm filoloji, həm də fəlsəfi ənənənin inkişafına əhəmiyyətli töhfə vermiş, dilin idrak prosesindəki funksiyasını yenidən konseptuallaşdıran əsas humanistlərdən biri olmuşdur.

[1] Magistrant, Sosial Elmlər və Psixologiya Fakültəsi, Bakı Dövlət Universiteti; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: khalafovagulnara@gmail.com
https://orcid.org/0009-0009-0558-4491
[2] Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
"AcademyGate Publishing"-in elmi tədqiqatçısı (ISNI: 0000000514175052); Bakı, Azərbaycan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
**Məqaləyə istinad:** Xələfova, G., & Məlikov, Ə. [2025]. Lorenzo Valla və Humanist Dil Konsepsiyasının Fəlsəfi Təhlili. *History of Science jurnalı*, *6*(5), səh.169-180.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.169-180

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 15.10.2025*
*Yenidən baxılıb: 17.11.2025*
*Təsdiqlənib: 01.12.2025*
*Dərc olunub: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ЛОРЕНЦО ВАЛЛА И ФИЛОСОФСКИЙ АНАЛИЗ ГУМАНИСТИЧЕСКОЙ КОНЦЕПЦИИ ЯЗЫКА

**Гульнара Халафова**[1]
**Аладдин Маликов**[2]

**УДК:** 1(091)"14":81′2(091)
**ББК:** 87.3:81
**HoS:** 119
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.169-180

**Ключевые слова:**

Ренессанс,
Гуманизм,
Лоренцо Валла,
Лингвистика,
Живой язык

## АННОТАЦИЯ

Период гуманизма является этапом в интеллектуальной истории Европы, в рамках которого язык понимался не только как средство общения, но и как фундаментальный инструмент, формирующий мышление. В эту эпоху границы познания были переопределены, а философский анализ отношений между языком и значением оказался в центре особого внимания. В данном контексте, хотя Лоренцо Валла обычно известен лишь своим трудом «Ложное дарование Константина», оценивать его философские взгляды только на основе этого текста недостаточно для адекватного отражения сущности гуманистической концепции языка. Указанное произведение, помимо доказательства подложности политического документа, выступает также типичным примером гуманистического языкового мышления. В статье гуманистическая концепция языка Лоренцо Валлы анализируется в сравнении с идеями представителей других гуманистических и философских традиций — Хуана Луиса Вивеса, Пьетро Бембо и Уильяма Оккама. В исследовании подход Валлы к соотношению значения и выражения рассматривается на основе аналитического метода, а его филологический стиль оценивается с точки зрения влияния на формирование гуманистической мысли. Кроме того, в работе обращается внимание на ошибочность сведения философско-лингвистических взглядов Валлы в академической литературе лишь к одному произведению, а также исследуется процесс развития языковой концепции эпохи гуманизма с помощью историко-философского метода. В результате устанавливается, что Лоренцо Валла внёс значительный вклад в развитие как филологической, так и философской традиции в истории гуманистической мысли и был одним из ключевых гуманистов, заново концептуализировавших функцию языка в когнитивном процессе.

[1] Магистрант, Факультет социальных наук и психологии, Бакинский государственный университет; Баку, Азербайджан (ответственный автор)
E-mail: khalafovagulnara@gmail.com
https://orcid.org/0009-0009-0558-4491
[2] Доктор философии по философии, доцент,
AcademyGate Publishing (ISNI: 0000000514175052); Баку, Азербайджан
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
**Цитировать статью:** Халафова, Г., & Маликов, А. [2025]. Лоренцо Валла и философский анализ гуманистической концепции языка. *Журнал History of Science*, 6(5), с.169-180.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.169-180

***История статьи:***
*Поступила: 15.10.2025*
*Переработана: 17.11.2025*
*Принята: 01.12.2025*
*Опубликована: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Lorenzo Vallanın düşüncə sistemini aydın şəkildə təhlil etmək üçün onun yaşadığı dövrün konkret tarixi şəraitini nəzərdən keçirmək lazımdır. Bu, Renessans humanizminin mahiyyətini anlamaqla mümkündür. Renessans orta əsrlərin din və kilsə təzyiqi altında formalaşmış düşüncə sisteminə qarşı yaranan, insanı mərkəzə qoyan, antik Yunan və Roma mədəniyyətlərinə geri dönməyi hədəfləyən intellektual və mədəni yenidən doğuş dövrüdür [1]. Renessans humanizmi isə insan ağlını, dilini və əxlaqi yetkinliyini ön plana çıxardaraq klassik dövrün mədəni və intellektual mirasını bərpa etməyə yönəlmiş hərakat idi. Bu hərakat yalnız təhsil sahəsini deyil, eyni zamanda cəmiyyətin mənəvi həyatının yenilənməsini nəzərdə tuturdu [2].

Renessanın ilk olaraq İtaliyada formalaşmasını şərtləndirən bir sıra amillər mövcud idi:

– Şəhər dövlətlər və iqtisadi zəmin: XIV əsrin sonlarına doğru İtaliya vahid bir dövlətdən daha çox Florensiya, Venesiya və Roma kimi müstəqil şəhər dövlətlərdən ibarət olan bir ərazi idi. Bu şəhər dövlətlər ticarət və kommersiyanın inkişaf etdiyi mərkəzlərə çevrilmişdi. Coğrafi mövqelərinin əlverişliliyi sayəsində əldə edilən iqtisadi rifah sənət və mədəniyyətin himayə edilməsinə şərait yaradırdı. Buradan belə qənaətə gəlmək olar ki, ticarətdən toplanan sərvət fərdlərə incəsənəti dəstəkləmək və yaradıcı mühiti formalaşdırmaq imkanı vermiş, bu isə Renessansın təşəkkül tapması üçün münbit zəmin yaratmışdır [Gamberini & Lazzarini, 2012, s.13-19].

– Antik Roma irsinin təsiri: İtaliya antik Roma imperiyasının qürurlu varisi kimi Renessansın formalaşmasında mühüm rol oynamışdır [Burckhardt, 1878, s.69]. Roma sivilizasiyasının qalıqları (qədim məbəd və bina qalıqları) bütün İtaliya yarımadasına səpələnmiş vəziyyətdə idi və tez-tez ziyarət edilirdi. Demək olar ki, maddi və mənəvi irs sənətkarlar və alimlər üçün ilham mənbəyinə çevrilmiş, onlarda keçmişin müdrikliyini yenidən kəşf etməyə maraq oyatmışdır. “Roma daxilində və xaricindəki xarabalıqlar sadəcə antik irsə marağı artırmadı, həm də Petrarka və Boccaccionun yaradıcılığında öz əksini tapan düşüncə tərzinin formalaşmasına təsir göstərdi” [Burckhardt, 1878, s.74].

– Klassik mətnlərin yenidən kəşfi: Orta əsrlər boyu Avropa intellektual durğunluq dövrünə girmiş, qədim Yunan və Roma yazılarına əlçatanlıq ciddi şəkildə məhdudlaşdırılmışdı. Bununla belə, bir sıra italyan alimləri monastır kitabxanalarına üz tutaraq unudulmuş əlyazmaların izini sürürdülər. Belə qənaətə gəlmək olar ki, intellektual durğunluğa baxmayaraq antik irsə maraq tamamilə itməmiş, əksinə, müəyyən alimlər vasitəsi ilə gizli şəkildə qorunub saxlanılmışdır [5].

– Siyasi sabitlik: Avropanın digər ölkələri daxili münaqişə və işğallarla məşğul olarkən, İtaliyada nisbi sabitlik hökm sürürdü. Nisbi sabitliyin əsas səbəbləri daxili münasibətlərdə nizam-intizamın qorunması və xarici məsələlərin diplomatik yollarla həllinə üstünlük verilməsi idi. Beləliklə, İtaliyanın sabit ictimai-siyasi mühiti elmi və mədəni sahələrdə davamlı inkişaf üçün şərait yaratmışdır [Gamberini & Lazzarini, 2012, s.21-23].

– Universitetlər və məktəblər: şəhər və monastırlarda fəaliyyət göstərən təhsil mərkəzləri tələbələrə klassik yazıları öyrənmək və intellektual bacarıqlarını inkişaf etdirmək imkanı verirdi. Dövlətin maliyyə imkanlarının artması həm müəllimlərin, həm də istedadlı tələbələrin maddi cəhətdən dəstəklənməsini təmin edirdi. Nəticə etibarilə, şəhər və monastır təhsil mərkəzlərində aparılan təhsil fəaliyyəti, dövlətin müəllim və tələbələrə verdiyi maddi dəstək intellektual canlanmanın əsas dayaqlarından biri olmuşdur [Burckhardt, 1878, s.82-89].

İntellektual və fəlsəfi bir cərəyan olaraq humanizmin yüksəlişi dövrün əlamətdar hadisəsi idi. Belə görünür ki, ilk zamanlarda humanistlər cəmiyyətdə müxtəlif və dəyişkən kimlikləri olan bir qrup kimi tanınmağa başladılar. “Onlar həm özləri, həm də ətrafdakılar üçün yeni sosial təzahür kimi qəbul edildilər” [Burckhardt, 1878, s.79].

Humanistlər antik dövrün biliklərini yenidən dirçəltməklə xristiyan və paqan dünyagörüşünü uzlaşdırmağa çalışmış, Dante, Petrarka, Boccaccio və Vittorino de Feltre kimi şəxslər həm ədəbi, həm də pedaqoji fəaliyyətləri ilə fərdin inkişafını təmin etməklə yanaşı, sosial mədəniyyətin formalaşmasını da əsaslandırmışlar [Burckhardt, 1897, s.79-81].

Nəticə etibarilə, humanistlər orta əsrlərin kilsə mərkəzli mədəniyyətinə alternativ olan yeni bir sivilizasiya formalaşdırmağı böyük ölçüdə bacarmışlar.

**2.Lorenzo Vallanın humanizmdə yeri**

Lorenzo Valla (1407-1457), italyan humanisti, alim və filoloq olaraq Renessans humanizminin nüfuzlu simalarından biri olmuşdur. Ona məşhurluq gətirən əsəri olan "Konstantinin Saxta Bağışı" (1440) elmi tədqiqatlarda kifayət qədər işlənmişdir. Halbuki, bu əsər Valla irsinin sadəcə bir hissəsini əhatə etmiş və O, eyni zamanda bir sıra digər əsərlərin də müəllifi olmuşdur:

1. "Həzz Haqqında" əsərində Epikürün ən yüksək yaxşılıq və xoşbəxliyin həzz ilə əlaqələndirilməsi ideyasına müraciət olunmuş, həzzi isə sadəcə günah kimi qəbul edən kilsə baxışları tənqid edilmişdir. Belə görünür ki, mənəvi və əxlaqi ölçüləri ağıllı şəkildə qorumaqla həzzin doğru istiqamətdə istifadəsinin mümkünlüyü göstərilmişdir. "Çox güclü bir ehtirasdan müvəqqəti olaraq kor ola bilərik, lakin bu ehtirasları dağıtmaq və onlara ağılla rəhbərlik etmək bizim öz iradəmizdən aslıdır" [Nauta, 2007, s.179].

Beləliklə, Epikürün həzz prinsipi humanist təfəkkürlə birləşərək insanın əxlaqi və intellektual inkişafı üçün rasional bir yol təqdim edir.

2. "Azad İradə Haqqında" adlı əsərdə fəlsəfənin ən böyük problemlərindən olan insan iradəsinin azadlığı və Tanrının hər şeyi qabaqcadan bilməsi arasındakı əlaqə təhlil edilir. Azad iradə məsələsinə teoloji baxımdan yanaşılır, insan və Tanrı iradəsi arasındakı əlaqə konflikt kimi götürülür. Tanrı öncədən görmə qabiliyyətinə malik olsa da mərhəmətlidir, insan isə ancaq Tanrının iradəsini qavradıqdan sonra ona inana bilər [Xu, 2025, s.5-9].

Nəticə etibarilə, azad iradə və tale məsələlərinin başa düşülməsi Tanrı iradəsinin sirrli olması ilə bağlı olaraq problem kimi görsənir. "Azad İradə Haqqında Dialoq" əsərində Valla Boethiusu (red, Anicius Severinus Boethius, VI əsr Roma filosofu - G. X) gələcək hadisələrin qeyri-müəyyənliyini açıq şəkildə müzakirə etmədiyi üçün tənqid edir və teoloji nöqteyi-nəzərdən azad iradə məsələsinin təhrif olunduğunu iddia edir. Valla bu problemin xristiyanlıqdan deyil, qədim Yunanıstandan gəldiyinə inanır" [Xu, 2025, s.5].

3. "Məntiq və Fəlsəfənin Yenidən Təşkili" əsərində latın dili yalnız ədəbiyyat deyil, bütün intellektual fəaliyyət sahələri üçün əsas vasitə kimi qiymətləndirilir. Eyni zamanda, sxolastik terminlər tənqid edilərək dünyanın təsvirinin sadələşdirilməsinə cəhd göstərilir. "Vallanın üzərinə qoyduğu əsas vəzifə dili texniki jarqonlardan və boş məhfumlardan təmizləyərək onu sağlam dünyagörüşünün əsas vasitəsinə çevirməkdir" [Nauta, 2007, s.198].

Beləliklə, latın dili bütün intellektual sahələr üçün əsas vasitə kimi qəbul edilmiş və sxolastik terminlərin tənqidində istifadə olunaraq dünyanı daha anlaşılan şəkildə təqdim etməyə kömək etmişdir.

4. "Latın Dilinin İncəlikləri" əsərində dil düşüncə və biliyin aydınlığını təmin edən fundamental vasitə kimi təqdim edilir. Bu vasitənin tətbiqi zamanı yalnız qrammatik düzgünlük deyil, həm də sözün semantik dəqiqliyi və ifadə qüvvəsi mühüm əhəmiyyət kəsb edir. Son nəticədə, dilin həm qrammatik, həm də intellektual məqsədləri təmin edən vasitə olması fikri humanist dil konsepsiyasının təməl prinsipi ilə üst-üstə düşür [Nauta, 2007, s.195-198].

**3.Humanist dil konsepsiyasının zəruriliyi**

Orta əsrlərdə əsasən kilsə işlərində və inzibati sənədlərdə istifadə edilən latın dili struktur baxımdan sadələşmiş, normaları pozulmuş və səhvlərlə dolu olan bir dilə

çevrilməyə başlamışdı. Bu hadisələr dövrün sosial-siyasi mənzərəsindəki transformasiyaları əks etdirirdi. Transformasiyanın kökündə kilsə tərəfindən istifadə edilən latın dili ilə xalq danışıq dili arasındakı ciddi müqayisə dururdu. Bu müqayisə dildən istifadə məqsədlərindən qaynaqlanır və məqsədin praktik ifadəsi özünü kilsə siyasətində tapırdı. Kilsə latın dilindən bir tərəfdən daxili məsələlərini həll etmək üçün, digər tərəfdən papa çıxışları vasitəsilə kütləni müharibəyə çağırmaq üçün istifadə edirdi. “Ehtimal olunur ki, Urban (red-Papa II Urban - G. X) istədiyindən də böyük həvəs oyatdı. Ruhanilərə ikinci müraciətində qoca kişiləri, müharibəyə yararsızları və qəyyumsuz qadınları istəmədiyini bildirmiş, sonrakı məhdudiyyətləri isə Bolonya sakinlərinə yazdığı məktubda açıqlamışdır” [Munro, 1906, s.237].

Zənnimizcə, dövrün şəraitinə əsaslanaraq latın dilinin kilsə tərəfindən tədricən təhrif edilməsinin səbəblərini ümumiləşdirmək mümkündür:

1. Roma Katolik Kilsəsi siyasi və dini hakimiyyətini gücləndirmək üçün latın dilindən bir alət kimi istifadə edirdi.
2. Bu, sənədlərin geniş oxucu kütləsi üçün “təhlükəsiz” və “əlçatan” olmasını təmin etmək məqsədi güdürdü.
3. Latın dili üzərində nəzarət və dilin kilsənin institusional maraqlarına (hakimiyyət, mülkiyyət və s.) uyğunlaşdırılması kilsə hakimiyyətini möhkəmləndirməklə məhdudlaşmır, eyni zamanda kilsənin nüfuz sahəsini genişləndirməyə şərait yaradırdı.

**4.Latın Dilinin İncəlikləri əsərində dilin canlılığı məsələsi**

Lorenzo Vallanın qələmə aldığı “Konstantinin Saxta Bağışı” əsərində onun dil haqqında fikirləri, tənqidi üsullardan istifadə etməsi məlumdur. Bununla yanaşı az tədqiq olunmasına baxmayaraq humanist dil konsepsiyası və antik latın dilinin kilsə tərəfindən istifadə edilən latın dili ilə müqayisəsi “Latın Dilinin İncəlikləri” əsərində daha aydın və hərtərəfli şəkildə qeyd edilmişdir. “*Vallanın dil haqqında düşüncələrinin şah əsəri olan “İncəliklərə” maraq artmaqda olsa da ona həsr edilmiş biblioqrafiya və mənbə tədqiqatları hələ də məhduddur*” [Marsico, 2013, s.17].

Belə qənaətə gəlmək daha düzgün olar ki, bu çatışmazlıq Vallanın sözügedən əsərinin humanizmdəki töhfələrini müəyyən etməyə mane olmamalıdır. Əsər qrammatik, ritorik, leksikoqrafik və filoloji məsələləri, eləcə də dilin dəyərinə dair mülahizələri əhatə edir və morfoloji problemlərdən başlayaraq sinonim fərqləri, söz birləşmələrinin dəqiq mənalarının müəyyənləşdirilməsi, sintaksis, üslub və mətn ənənəsi (mətndə olan normativlər, ritorik və stilistik nüanslar) kimi müxtəlif sahələrə yönəlmişdir [Marsico, 2013, s.18-20].

Lorenzo Valla dilə onun tarixi əhəmiyyətini vurğulamaqla izahlar gətirməyə başlayır. *“Bizim əcdadlarımız təkcə öz hökmranlıqlarında deyil, həm də dillərinin təbliğində hamını üstələyiblər. Farslar, Midiyalılar, Assurlar, Yunanlar və digərləri bizim bildiyimizdən daha böyük bir imperiyaya sahib olub, müəyyən gücə malik olsalar da onların heç biri öz dillərini bizim dilimiz (red, latın dili -G. X) qədər genişləndirməmişdir”* [Valla, 1540, s.6].

Belə görünür ki, dil tarixi və mədəni konteksdə izah edilərkən Romanın mənəvi mirası təriflənir, dil vasitəsilə keçmişin qorunması və onun gələcək nəsillərə ötürülməsinin vacibliyi göstərilir. Əsərin giriş hissəsində həm Roma imperiyası xaricində yaşayan, həm də latın dilini zədələyən dilin vulgar və kobud istifadəçiləri bütünlükdə barbarlar adlandırılır. Örnək olaraq Anadolunun antik bölgəsində danışılan və latın estetikası baxımından “barbar” sayılan dillərdən olan likiya dili göstərilir [Valla, 1540, s.7-8].

Vallaya görə, barbarizmlərdən biri də əncir ifadəsidir. Fikrimizcə, Vallanın bu ifadəni “barbar” adlandırması təsadüfi deyil və onun humanist konsepsiyasının başlıca məqsədi ilə üst-üstə düşür. Əgər ən sadə söz belə yanlış və kobud ifadə olunursa, barbarizm sayılır. Çünki yalnız “əncir” demək kifayət deyil, onun növünü, formasını, xüsusiyyətlərini də göstərmək lazımdır. “Əncir” ifadəsi məqsədli olaraq gündəlik və sadə söz olaraq seçilmişdir ki, müəllifin verdiyi nümunəni hər kəs başa düşə bilsin. Son nəticədə, “əmr etmək” ifadəsi

ilə məqsədli şəkildə digər bir qayda pozuntusuna yer verilmişdir ki, burada “tələb etmək” nəzərdə tutulmuşdur. “*Mən “əncir” deyəndə barbar söz kimi gülürsən, amma mənə “əncir” deməyi əmr edirsən, Cecilian*” [Valla, 1540, s.12].

Demək olar ki, Vallanın dil üçün müəyyən etdiyi estetik tələblər nitqin düzgünlüyü ilə sıx şəkildə bağlıdır. Çünki nitq dilin ifadə imkanlarını üzə çıxaran əsas vasitələrdən biridir və bu, natiqin çıxışında praktiki şəkildə özünü göstərir. Natiqlərin nitqi estetik baxımdan çox güclü olduğu üçün bəzən mürəkkəb görünə bilər. Yüksək səviyyədə natiqlik bacarığının sadə insanlar üçün mənasız və anlaşılmaz görünməsi təbiidir. “*Quintilian: ən yaxşısı nədirsə, ən çətini də odur*” [Valla, 1540, s.40].

Nəticə etibarilə, nitqin məzmun və forması arasında harmoniya yaratmaq hər bir humanistin vəzifəsidir. Hər bir humanist bu vəzifənin yerinə yetirilməsinə ciddi yanaşmalı, bunun üçün istifadə etdiyi hər bir ifadəyə fikir verməlidir.

**5.Humanist dil və əxlaq**

Lorenzo Valla əxlaqın təməlini izah edərkən ağıl və vicdanı əsas götürür. İnsanın seçimlərini ağlının süzgəcindən keçirərək dəyərləndirdiyini və bu yolla da doğru və yanlış olanı bir-birindən ayırd edə bildiyini qeyd edir. Vicdan isə insanın əxlaqi baxımdan dəyərləndirilə biləcək seçimlərinin daxili rəhbəri və yol göstəricisi qismində çıxış edir. Sadəcə cəmiyyətdə olan dəyərlər, avtoritet tərəfindən müəyyən edilən qanunlar insan üçün kifayət deyildir, insan vicdanından istifadə edərək “de vero bono” kimi adlanan həqiqi yaxşılıq prinsipini dərk edə bilər. Bu prinsipə əsasən insan əxlaqi seçimlərini qiymətləndirdiyi zaman həqiqi yaxşılığın nə olduğunu əsas götürməlidir. Həqiqi yaxşılıq prinsipindən istifadə etməklə öz hərəkətlərini vicdan və ağıl süzgəcindən keçirməlidir. Bu prinsipin Valla əxlaq konsepsiyasının mərkəzində olduğu açıqdır. *““De vero bono” başa düşülən bir şəkildə Vallanın əxlaqi və dini görüşlərinin əsas mənbəyi hesab olunur*” [Nauta, 2007, s.174].

Nəticə etibarilə, Valla insanın həqiqi yaxşılığı dərk edə bilib-bilməyəcəyi sualına əksər humanistlər kimi müsbət yanaşır. Lorenzo Valla hesab edir ki, əgər insan ağıl və vicdanından düzgün bir şəkildə istifadə edə bilərsə, bu zaman həqiqi yaxşılıq prinsipini dərk edə bilər. Əlbəttə ki, insanın səhvlər edə biləcəyi istisna edilmir. Çünki bəzən həzz prinsipi həddindən artıq güclü olarsa, insanı səhv etməyə, vicdanını göz ardı etməyə, ağlından düzgün istifadə edə bilməməyə yönləndirə bilər.

Beləliklə, Lorenzo Vallanın dil və əxlaq ilə bağlı görüşləri öz praktiki nəticəsini təhsildə tapır ki, bu da öz növbəsində dil və əxlaqın təhsil vasitəsilə izahını verən, Valladan sonra yaşamış digər bir italyan humanisti Juan Luis Vivesi xatırladır.

Juan Luis Vives (1493-1540) əxlaq anlayışını çox böyük ölçüdə Tanrı ilə izah edir. Vivesə görə insanın əxlaqi hərəkətləri üçün ən böyük ölçü Tanrıya uyğun yaşamaq və onun iradəsini əks etdirməyə çalışmaqdır. Bu zaman vicdan Tanrı tərəfindən verilmiş bir rəhbər kimi çıxış edir və insanın doğru və yanlışı bir-birindən ayırmasına kömək edir. *“Ona (red, Tanrı- G. X) olan sevgimizi artıran sənətləri öyrənməli, ona olan sevgimizi zəiflədən və söndürənləri isə dərhal rədd etməliyik. Tanrı ən böyük yaxşılıqdır”* [Watson, 1913, s.28].

Belə qənaətə gəlmək olar ki, Vives əxlaqında Tanrı aktiv rol oynayır, insanın əxlaqi hərəkətləri Tanrının iradəsi və ona olan sevgi ilə yönləndirilir. Lorenzo Vallanın əxlaq konsepsiyasında isə Tanrı önəmli bir varlıq olsa da əxlaqi seçimlərdə insan ağlı və vicdanı ön plandadır. Valla üçün Tanrı aktiv bir istiqamətverici qüvvə deyildir, fərdin əxlaqlı olub-olmaması özü üçündür, Tanrıya xidmət, ya da onun iradəsinə bir uyğunluq deyildir. Lorenzo Vallanın həqiqi yaxşılıq prinsipi özünü ağıl və vicdanın vəhdətində göstərirdisə, Juan Vives üçün həqiqi yaxşılıq prinsipi ən ali prinsip olan Tanrıdır.

Vives üçün əxlaq təhsil vasitəsilə reallaşır. Effektiv təhsil yalnız dərslərin nəyi və necə öyrədəcəyindən ibarət deyildir. Əvvəlcə məktəblərin yerləşməsi, məktəb binalarının dizaynı, müəllim seçimləri kimi məsələlərə hərtərəfli yanaşır. Çünki bu infrastrukturu təmin

etmədən dərslərin səmərəli şəkildə tədrisi mümkün deyildir. Məktəblər sadəcə bilik vermə məkanı olaraq deyil, eyni zamanda əxlaqi və intellektual inkişaf üçün optimal bir mühit olaraq nəzərdən keçirilir. Ətraf mühit, müəllim heyəti və idarəetmənin uyğunluğu birlikdə təhsilin keyfiyyətini müəyyən etməkdə və insan ağlını inkişaf etdirməkdə mühüm rol oynayır. *"Hər cür təkəbbür, lovğalıq halları ortadan qalxdıqdan sonra həqiqətin ortaya çıxmadığı ictimai mübahisələr də nadir olacaq"* [Watson, 1913, s.57].

Nəticə etibarilə, Lorenzo Vallanın düzgün təhsil üçün müəyyən etdiyi tələblər ilə Juan Vivesin ideal məktəb tələbləri insanın əxlaqi və intellektual inkişafına yönəldiyi üçün aralarında analoji uyğunluq mövcuddur. Lakin onların yanaşmalarında fərqlilik vardır. Vallanın düzgün tələbləri insanın fərdi əxlaqi və intellektual inkişafına yönəlmişdir ki, burda əsas məqsəd insanın son nəticədə öz ağlı və vicdanını inkişaf etdirməsidir. Vives isə təhsilə daha geniş bir perspektivdən baxır ki, bunun məqsədi sadəcə fərdi inkişafı təmin etmək deyil, son nöqtədə cəmiyyət üçün faydalı vətəndaşlar yetişdirməkdir. Lorenzo Valla və Juan Vives dil-əxlaq əlaqəsinin özünü təhsildə reallaşdırdığını qəbul etsələr də onlar arasında təhsilin məqsədi və prioritetləri baxımından nəzərəçarpan fərqliliklər vardır. Təhsilin məqsədi və dilə baxışdakı fərqi daha yaxşı anlamaq üçün istifadə edə biləcəyimiz ən yaxşı hekayələrdən birinə fəlsəfə tarixində rast gəlmək mümkündür.

Platon "Dövlət" dialoqunun II kitabında Gygesin üzüyü hekayəsini təsvir edir. Hekayəyə görə, Gyges təsadüfən tapdığı və onu görünməz edən üzük sayəsində güc əldə edir. İstənilən halda Gygesin bu gücdən xeyirxah məqsədlər üçün istifadə etmədiyi açıqdır. *"Bundan sonra da artıq hökmdara hesabat verənlərdən biri olmaq üçün vaxt itirmir, hökmdarın arvadını aldadır, hökmdara qarşı hiylə qurur, onu öldürür və hakimiyyəti ələ keçirir"* [Griffith, 2000, s.360].

Qeyd etmək məqsədəuyğundur ki, Juan Vives birbaşa olaraq bu hekayəni özünün əxlaq görüşləri çərçivəsində nəzərdən keçirməmişdir. Buna baxmayaraq, onun əxlaq konsepsiyasına əsasən hekayəni necə şərh edəcəyini təxmin etmək çətin deyil. Gyges üzüyü tapdığı andan etibarən onun mənəvi sınağı başlayır. Üzüyün verdiyi güc onun imanını və əxlaqi möhkəmliyini sınamaq üçündür. Gyges də üzüyün gücünə rəğmən öz istəklərinə hakim olmalı, əxlaqi cəhətdən saf qalmalıdır. Çünki heç kim görməsə belə Tanrı onu görür. Lakin Gyges sınaqdan keçə bilmir. Çünki üzükdən eqoist məqsədlər üçün istifadə edir və Tanrı qarşısında olan məsuliyyətini unudur. Bunun səbəbi isə Gygesin öz təbii meyillərini sərbəst buraxması və düzgün təhsil almamasıdır.

Lorenzo Vallanın humanist ideyaları konteksində isə Gygesin mənəvi çöküşü imanın yoxluğu ilə deyil, ağlın məsuliyyətsiz istifadəsi ilə bağlıdır. Əgər ağıl, vicdan və dil arasında əlaqə tapılmırsa, o zaman bütün anlayışlar boş sözlərə çevrilir. Gygesin üzüyü tapdığı anda onun gücünü bilməməsi ilə onun əxlaqi baxımdan yanlış qərar verməsi arasında əlaqə vardır. Əgər Gyges görünməzlik imkanı verən üzüklə cəmiyyət qarşısında məsuliyyət hissini itirirsə, deməli, Gyges üçün dil saf düşüncənin ifadəsi deyil, manipulyasiya alətidir.

**6.Dilin humanist missiyası**

Dilin yanlış məqsədlər, fərdi mənfəətlər və insan davranışına haqq qazandırmaq üçün istifadəsi hərtərəfli olmuş, həm də siyasi müstəvidə özünü göstərmişdir. Lorenzo Valla "Konstantinin Saxta Bağışı" əsərində eyni adlı sənədin saxtalığını ifşa etmiş və dil-siyasət əlaqəsini ortaya qoyan ən parlaq nümunələrdən birini təqdim etmişdir. Əsərdə aparılan filoloji-ritorik təhlil kilsənin dil oyunları vasitəsilə gücünü necə formalaşdırdığı və möhkəmləndirdiyini göstərir [Nauta, 2007, s.204-205].

Fikrimizcə, Vallanın dil və siyasət arasındakı əlaqəni filoloji-ritorik təhlillərlə ortaya qoyaraq dili ictimai-siyasi nüfuz və hakimiyyət vasitəsi kimi qiymətləndirməsi digər bir italyan humanisti Pietro Bembonu xatırladır.

Pietro Bembo (1470-1547) Valla ilə eyni dövrdə yaşamış italyan humanistidir. Onun üçün dil ictimai və intellektual hakimiyyət alətidir. Bembo hesab edir ki, düzgün və üslubi

baxımdan zəngin dil, insanın düşüncə və davranışlarını yönəltmək üçün istifadə oluna bilər. Onun dil haqqında dünyagörüşünü əks etdirən əsərlərdən biri 1525-ci ildə Venesiyada çap edilən "Vernekulyar Dil Haqqında Nəsr" əsəridir. *"Əsərin birincisi hissəsi italyan xalq dilinin müxtəlifliyi, onun latın və provans dilləri ilə əlaqəsi, üstünlük verilən xalq dili haqqında məsələlərə həsr edilmişdir. İkinci hissədə ritorik (red, nitq sənəti, üslub, ifadə tərzi- G. X) məsələləri müzakirə edən müəllif, əsərin son hissəsində qrammatikanın əsas mövzularını şərh etmişdir"* [Camboni, 2022, s.1].

Pietro Bembonun dilin statusu haqqındakı fikirlərini ümumiləşdirməklə müəllifin mövqeyi barədə bir sıra nəticələrə gəlmək mümkündür:

1. Vernekulyar dil (red, xalq danışıq dili - G. X) latın dili qədər ciddi qəbul edilməlidir, çünki italyan xalq dilinin latın dili qədər yüksək ədəbi səviyyəyə qalxmaq potensiyalı vardır.
2. Dilin məqsədi ünsiyyət qurmaq deyil, ölümsüz bir miras yaradaraq insanın yazı vasitəsilə zamanın sərhədlərini aşmasına kömək etməkdir.
3. Dil cəmiyyətdə nizam yaratmalıdır, dövlətdə olan avtoritet dildə də olmalı və dil sosial quruluşun təməli olmalıdır [Camboni, 2022, s.1-15].

Qənaətimizcə, Lorenzo Valla və Pietro Bembonun ictimai-siyasi sahədə dilin istifadəsinə yanaşmalarının fərqliliklərini kilsənin Konstantinin bağışı ilə bağlı təqdim etdiyi sənəd üzərindən izah etmək mümkündür. Bu yanaşma hər iki humanistin dil və iqtidar münasibətlərini müqayisəli şəkildə qiymətləndirməyə imkan verir.

Orta əsrlərin ən məşhur saxtakarlıqlarından biri kimi qəbul edilən bu sənəd Roma imperatoru I Konstantinin (306-337) papa I Silvester (314-335) və onun xələflərinə geniş ərazi və maddi güc verdiyini iddia edir. Sənədin V əsrə aid əfsanələrə əsaslandığı və VIII əsrdə naməlum bir yazıçı tərəfindən tərtib edildiyi güman olunur. İlk dövrlərdə geniş yayılmadığı üçün sənədin təsiri məhdud qalsa da zaman keçdikcə kilsənin siyasi iddialarının (red, dünyəvi hakimiyyət iddiaları, geniş ərazi səlahiyyətləri - G. X) əsaslandırılmasında mühüm vasitəyə çevrilmişdir. Nəhayət, XV əsrdə Lorenzo Valla tərəfindən saxta olduğu filoloji metodlarla sübut edilənə qədər, sənəd Orta əsrlərdə Avropasının dini-siyasi münasibətlərində əhəmiyyətli rol oynamışdır [15].

Fikrimizcə, Lorenzo Vallanın kilsə tərəfindən təqdim edilən bağış sənədinə münasibəti birmənalıdır. Valla Konstantinin bağışı ilə bağlı kilsə sənədinin saxtalığını bir neçə arqumentlə ifşa edir. Əsas arqument odur ki, Konstantin öz sülaləsinin irsi hüququnu bu qədər rahatlıqla başqasına verə bilməzdi. Eyni zamanda, bunu gizlətmək və ya olduğu kimi sənədə keçirmək etik və praktik baxımdan uyğunsuzluq yaradır. *"Roma imperiyası daxilində siyasi hakimiyyətə sahib olmaq üçün papalığın istifadə etdiyi orta əsr sənədi saxtadır. İmperator ərazilərin böyük bir hissəsini Papa Silvesterə bağışlayarkən, fərqli bir şəkildə (red, dövrün qanuni-faktiki prosedurlarına uyğun - G. X) davranmalı idi"* [Nauta, 2007, s.204].

Bembonun ideyaları konteksində isə dilin ictimai və intellektual nüfuz aləti olduğu məlumdur. Deməli, həmin konteksdə kilsə sənədi manipulyativ xarakter daşıyır. Qənaətimizcə, sənəd siyasi və ictimai bir mesaj kimi təhlil edildikdə, dilin yanlış istifadəsinin risklərini açıq şəkildə ortaya qoyur.

Nəticə etibarilə, Lorenzo Valla və Pietro Bembo fərqli yanaşmalara malik olsalar da, dilin intellektual və ictimai təsirlərinin əhəmiyyəti barədə oxşar nəticələrə gəlirlər.

**7.Sxolastikaya tənqidi münasibət**

Lorenzo Valla dil və düşüncə arasındakı qarşılıqlı əlaqəni, dilin məntiq və təfəkkür tərzi üzərindəki təsirlərini dialektik təfəkkürə yanaşması çərçivəsində şərh edir. Şərhin əsas istiqamətini sxolastiklərin Aristotel metodunu latın dilinə mexaniki və formal şəkildə tətbiqinin (məna və məqsədi nəzərə almadan yalnız struktur qaydalara əsaslanmaq) tənqidi təşkil edir. Əsas məqsəd fəlsəfi arqumentlərin məntiqli və aydın olmasını təmin etməkdən ibarət olmalıdır. *"Kateqoriyalar dünyadakı şeyləri əks etdirməli, onlara işarə etməlidir.*

*Aristotelin təklif etdiyi 10 kateqoriyadan sadəcə üçünü (red, mahiyyət, fəaliyyət, keyfiyyət - G. X) qəbul edən Valla hesab edir ki, digər kateqoriyalara ehtiyac yoxdur"* [Nauta, 2007, s.199].

Beləliklə, Valla konsepsiyasına əsasən yalnız mahiyyət, fəaliyyət və keyfiyyət kateqoriyalarından istifadə etməklə həqiqi dünyadakı hadisələrin dəqiq təsvirini vermək mümkündür. Bu kateqoriyaların seçilməsi təsadüfi deyildir. Məsələn, mahiyyət varlığın təməl xarakterini müəyyən edir və onun nə olduğunu göstərir. Dilin obyektlərini adlandırmaq üçün dilin mahiyyətini bilmək zərurətə çevrilir. Fəaliyyət subyekt və obyektin hərəkət funksiyasını ifadə edir və onun necə davrandığını göstərir. Keyfiyyət tək varlığın dəyişkən atributlarını və xüsusiyyətlərini səciyyələndirir. *"Körpünün mahiyyəti onun sadəcə bir keçid olması ilə deyil, torpaq, göy və insanlar arasında əlaqələr yaradan bir obyekt olması ilə ortaya çıxır. Fəaliyyəti, üzərindən keçən insanlar və ətraf mənzərə ilə görünür, keyfiyyəti isə onun quruluşu və bu əlaqələrin təşkili ilə aydın olur"* [Heidegger, 1971, s. 145-161].

Nəticə etibarilə, mahiyyət, fəaliyyət və keyfiyyət kateqoriyaları obyektləri təsvir etmək üçün yetərlidir, digər kateqoriyalar isə əlavə qarışıqlıq yaratmaqdan başqa bir şey etmirlər. Bu qarışıqlığın aradan qaldırılmasının yolu dili sadələşdirməkdir. Bu yolla düşüncə də sadələşmiş olur.

Hesab edirik ki, Lorenzo Vallanın sxolastik məntiqi və təfəkkür sistemini kateqoriyaların azaldılması tələbi ilə tənqid etməsi müəyyən mənada William Ockhamın analoji fəlsəfi cəhdini xatırladır.

William Ockhamın (1287-1347) nominalist kimi əsas məqsədi sxolastik fəlsəfədəki abstrakt anlayış sisteminə qarşı düşüncəni mümkün qədər sadələşdirmək (nəzəriyyəni konkret müşahidə olunan hadisələrə uyğunlaşdırmaqla fəlsəfi kateqoriyaların sayını azaltmaq) idi. Ockham məntiq sistemində sadəliyin əhəmiyyətini vurğulayır, elmdə səmərəli və rasional təhlili dəstəkləyirdi. Gerçəkliyin təhlilində yalnız zəruri anlayışlara əsaslanan yanaşma sonradan Ockham ülgücü adlanan prinsipin ortaya çıxmasına səbəb oldu. "*Varlıqlar zərurətdən artıq çoxaldılmamalıdır*" [McFadden, 2023, s.9].

Nəticə etibarilə, Lorenzo Valla minimalizmi və William Ockham nominalizmi arasında müəyyən oxşarlıqlar müşahidə olunur. Lakin, Ockhamın ontoloji və məntiqi yanaşmalarından fərqli olaraq Valla öz mövqeyini humanist dil konsepsiyasına uyğunlaşdırmışdı.

**8.Nəticə**

Lorenzo Vallanın "Latın Dilinin İncəlikləri" əsəri yalnız dilin estetik və qrammatik incəliklərini bərpa etməyə çalışmadı, eyni zamanda humanist düşüncənin bünövrəsini möhkəmləndirdi. Vallanın dilin "canlı" və təbii olmasına dair mövqeyi, dilin gündəlik praktika ilə əlaqələndirilməsi cəhdləri Renessans dövründə sxolastik ənənin sərt qaydalarına qarşı yönəlmiş intellektual inqilab idi. Bu mövqe sonrakı humanistlərə və filosoflara, xüsusilə, Pietro Bembo, Juan Luis Vives və William Ockham kimi müttəfəkirlərə birbaşa və dolayı yollarla təsir etdi. Juan Luis Vivesin dil və əxlaq münasibətinə dair sosial-psixoloji yanaşması əxlaqi aspektdə Valla ideyaları ilə oxşarlıqlara malik idi. Pietro Bembo Vallanın üslubundakı "təbiilik prinsipini" (dilin təbii, sadə və aydın ifadə qaydalarına riayət edilməsi) italyan dilinə tətbiq etməyə çalışmışdı. Beləliklə, Lorenzo Valla həm dilin, həm də düşüncənin insan mərkəzli olmasının təməlini qoymuş, Renessans humanizminin ideya əsaslarını formalaşdırmışdır.

Nəticə etibarilə, humanist dil konsepsiyası vasitəsilə Lorenzo Valla:

1. Dil diskursunda sxolastik riyakarlığı (sxolastik fəlsəfədə nəzəriyyə və praktik davranış arasındakı uyğunsuzluq) kəskin tənqid etmişdir.

2. Dilin filoloji və psixoloji ölçüsünü ön plana çəkərək ifadə aydınlığını məntiqi dəqiqlik ilə əlaqələndirmişdir.

3. Konstektual mənanın rolunu vurğulamış və müasir dilçilikdə olan nisbiliyi (dilin sabit olmaması, mənanın konteksdən asılı olaraq dəyişməsi) xeyli öncədən görmüşdür.
4. Natiqliyi bir qabiliyyət olmaqla yanaşı, həm də intellektual bir məsuliyyət olaraq dəyərləndirmişdir.
5. Sxolastik kateqoriyaların sayının azaldılmasının tərafdarı olmuş və bunu düşüncə azadlığı ilə əlaqələndirmişdir.
6. Təhsil və əxlaqın praktik əlaqəsini göstərərək dil və təfəkkür vasitəsilə daha düzgün etik qərar vermənin mahiyyətini əsaslandırmışdır.
7. Klassik humanizmi xristian əxlaqı ilə fanatizmə varmadan uzlaşdırmağa çalışmışdır.

## 9.REFERENCES


1. Britannica Editors. (2025). Renaissance. *Encyclopedia Britannica.* Retrieved from https://www.britannica.com/event/Renaissance (in English)
2. Grudin, R. (2025). Humanism. *Encyclopedia Britannica.* Retrieved from https://www.britannica.com/topic/humanism (in English)
3. Gamberini, A., & Lazzarini, I. (2012). *The Italian Renaissance State.* Cambridge University Press, 600 p. (in English)
4. Burckhardt, J. (1878). *The Civilization of the Renaissance in Italy.* Basel: Schwabe, 752 p. (in English)
5. Rundle, D. (2025). The Recovery of Manuscripts. Basel: *EHNE*. Retrieved from https://ehne.fr/en/node/21311 (in English)
6. Nauta, L. (2007). The price of reduction: Problems in Lorenzo Valla's Epicurean fideism. In S. Ebbersmeyer & E. Kessler (Eds.), *Ethics—Science or Art of Living? Models of Normative Justification from Antiquity to the Early Modern Period* (pp. 173–195). Lit Verlag (in English)
7. Xu, Y. (2025). Lorenzo Valla on the problem of free will and modal logic. *International Journal of Social Science Studies, 13*(1), 1–10 (in English)
8. Nauta, L. (2007). Lorenzo Valla and the rise of humanistic dialectic. In J. Hankins (Ed.), *The Cambridge Companion to Renaissance Philosophy* (pp. 193–210). Cambridge University Press (in English)
9. Munro, D. C. (1906). The speech of Pope Urban II at Clermont, 1905. *The American Historical Review, 11*(2), 231–242 (in English)
10. Marsico, C. (2013). *For the edition of the "Elegantiae" of Lorenzo Valla: Study on book V.* Firenze: Firenze University Press, 427 p. (in Italian)
11. Valla, L. (1540). *Elegantiae Linguae Latinae.* Heinrich Petri, 740 p. (in Latin)
12. Watson, F. (1913). *Vives on Education.* Cambridge University Press, 328 p. (in English)
13. Griffith, T. (2000). *Plato: The Republic.* Cambridge University Press, 436 p. (in English)
14. Camboni, M. C. (2022). Historicizing Italian literature in the early sixteenth century: Pietro Bembo's prose. *California Italian Studies, 11*(2), 1–24 (in English)
15. Britannica Editors. (2016, November 8). Donation of Constantine. *Encyclopedia Britannica.* Retrieved from https://www.britannica.com/topic/Donation-of-Constantine (in English)
16. Heidegger, M. (1971). Building, dwelling, thinking (A. Hofstadter, Trans.). In *Poetry, Language, Thought* (pp. 145–161). Harper & Row (in English)
17. McFadden, J. (2023). Razor sharp: The role of Occam's razor in science. *Annals of the New York Academy of Sciences, 1530*(1), 8–17. https://doi.org/10.1111/nyas.15086 (in English)


## ƏDƏBİYYAT


1. Britannica Editors (2025). Renaissance. *Encyclopedia Britannica.* https://www.britannica.com/event/Renaissance

2. Grudin, R. (2025). humanism. *Encyclopedia Britannica.* https://www.britannica.com/topic/humanism
3. Gamberini, A., & Lazzarini, I. (2012). *The Italian Renaissance State*. Cambridge: Cambridge University Press, 600 p.
4. Burckhardt, J. (1878). *The Civilization of the Renaissance in Italy*. Basel: Schwabe, 752 p.
5. Rundle, D. (2025). The Recovery of Manuscripts. Basel: *EHNE*. Retrieved from https://ehne.fr/en/node/21311
6. Nauta, L. (2007). The price of reduction: Problems in Lorenzo Valla's Epicurean fideism. In S. Ebbersmeyer & E. Kessler (Eds.), *Ethik-Wissenschaft oder Lebenskunst? Modelle der Normenbegdründung von der Antike bis zur Frühen Neuzeit* (pp. 173–195). Lit Verlag.
7. Xu, Y. (2025). Lorenzo Valla on the problem of free will and modal logic. *International Journal of Social Science Studies*, *13*(1), 1–10.
8. Nauta, L. (2007). Lorenzo Valla and the rise of humanistic dialectic. In J. Hankins (Ed.), *The Cambridge Companion to Renaissance Philosophy* (pp. 193–210). Cambridge University Press.
9. Munro, D. C. (1906). The speech of Pope Urban II at Clermont, 1905. *The American Historical Review*, *11*(2), 231–242.
10. Marsico, C. (2013). *Per l'edizione delle "Elegantiae" di Lorenzo Valla: Studio sul V libro*. Firenze: Firenze University Press, 427 p.
11. Valla, L. (1540). *Elegantiae Linguae Latinae*. Basel: Heinrich Petri, 740 p.
12. Watson, F. (1913). *Vives on Education*. Cambridge: Cambridge University Press, 328 p.
13. Griffith, T. (2000). *Plato: The Republic*. Cambridge: Cambridge University Press, 436 p.
14. Camboni, M. C. (2022). Historicizing Italian literature in the early sixteenth century: Pietro Bembo's *Prose*. *California Italian Studies*, *11*(2), 1–24.
15. Britannica Editors (2016, November 8). Donation of Constantine. *Encyclopedia Britannica*. https://www.britannica.com/topic/Donation-of-Constantine
16. Heidegger, M. (1971). Building, dwelling, thinking (A. Hofstadter, Trans.). In *Poetry, Language, Thought* (pp. 145–161). Harper & Row.
17. McFadden, J. (2023). Razor sharp: The role of Occam's razor in science. *Annals of the New York Academy of Sciences*, *1530*(1), 8–17. https://doi.org/10.1111/nyas.15086